

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 aprel 2021-ci il №29 (2537) https://mod.gov.az Qiymәti 30 qәpik

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Azərbaycan XXI əsrin müharibəsini aparmaqla yanaşı, mənəviyyat müharibəsi aparırdı

*Aprelin 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda iştirak edib.*



Çıxışında konfransın əhəmiyyətini vurğulamaqla yanaşı, dövlət başçısı qeyd edib ki, bizim torpaqlarımız 30 ilə yaxın işğal altında olub. "Biz ailə üzvlərini itirmiş, özlərinin doğma yurdlarında yaşamaqla bağlı fundamental hüquqlardan məhrum edilmiş insanların taleyini bir kənara qoya bilmərik. Biz Ermənistan ordusu tərəfindən törədilmiş vəhşilikləri unuda bilmərik. Biz heç vaxt Ermənistan və qondarma "Dağlıq Qarabağ rejimi"nin rəhbərliyi tərəfindən törədilmiş Xocalı soyqırımını və günahsız qurbanların xatirəsini unutmayacağıq. Bu səbəbdən həmin yaddaşın bizimlə qalacağını anlamaq olduqca vacibdir. Bu yaddaş qəlblərimizdə yaşayacaq".

Prezident İlham Əliyev onu da bildirib ki, Azərbaycan XXI əsrin müharibəsini aparmaqla yanaşı, əgər belə demək mümkündürsə, mənəviyyat müharibəsi aparırdı: "Müharibə başlayarkən mənim hərbi qulluqçulara dərhal verdiyim əmrlərdən biri ləyaqətlə, mötədil davranmaq, mülki vətəndaşlara zərər yetirməmək barədə oldu. Ermənistan tərəfində mülki əhali arasında 40 nəfərdən az tələfatın olması bunu aydın göstərdi.

Bu, Ermənistan tərəfindən törədilən ilk müharibə cinayətləri deyil. Onlar Birinci Qarabağ müharibəsində də müharibə cinayətləri törədiblər. Lakin o vaxt informasiya mühiti fərqli idi. Vəhşiliklərlə və barbarlıqla bağlı çoxlu faktlar sənədləşdirilməyib və sənədləşdirilsə belə, bu, beynəlxalq ictimaiyyətə çatmayıb. Beləliklə, onlar o zaman bir çox müharibə cinayətlərini gizlədə biliblər".

İkinci Qarabağ müharibəsinə diqqət çəkən Prezident İlham Əliyev qeyd edib ki, ermənilər günahsız mülki insanları yandırırdılar, öldürürdülər. “Bir çox kəndlər erməni barbarlığının qurbanı olub. İkinci Qarabağ müharibəsi zamanı onlar beynəlxalq ictimaiyyətin gözü qarşısında bizim şəhər və kəndlərimizi ballistik raketlərlə bombalayıblar, hər gün artilleriya atəşinə tutublar. Tərtər balaca şəhərdir, ora 16 min bomba atılıb, onlar hətta qəbiristanlıqda olan mərasimə də bomba atıblar. Onlar Bərdəni bombalayıblar. Onlar Naftalana bomba ataraq beş nəfərlik ailəni qətlə yetiriblər. Onlar elə güman edirdilər ki, bizim şəhərlərimizə və kəndlərimizə hücum etməklə bizi dayandıra biləcəklər. Biz eynisini etmədik. Biz heç bir kəndi və ya şəhəri vurmadıq, yalnız Xankəndidəki hərbi obyektləri vurduq”.

"Gəncə şəhərinə ballistik raketlərin atılması barbarlığın aydın göstəricisidir. Çünki həmin ballistik raketin hədəfi var idi. Yaşayış komplekslərinin vurulması təsadüfi deyildi. Bu, gecə vaxtı insanların yatdığı zaman hədəflənmiş hücum idi. Bu, bir dəfə olmadı, bir neçə dəfə baş verdi. Onlar bundan sonra nə etdilər? Dedilər ki, bu, onlar deyil. Ermənistan rəsmiləri bildirdilər ki, bunları edən ermənilər deyil. Onda kim bunu etdi? Kim? Biz özümüz? Siz yəqin bilirsiniz ki, onlar Xocalı soyqırımının günahını da bizim üzərimizə atmaq istəyirdilər. Onlar belə xalq ictimaiyyəti inandırmağa çalışırdılar ki, azərbaycanlılar özləri günahsız insanları qətlə yetiriblər. Onlar "Toçka U" və "Elbrus" raketləri ilə də eynisini etdilər", - deyə dövlətimizin başçısı vurğulayıb.

Zəngəzurun qədim Azərbaycan ərazisi olduğunu vurğulayan Prezident İlham Əliyev deyib: “Mən deyəndə ki, Zəngəzur qədim Azərbaycan torpağıdır, bu, həqiqətdir. Zəngəzur 1920-ci ildə Ermənistana verilmişdir – 101 il əvvəl. Ondan əvvəl o torpaq bizə məxsus idi. Onların bu gün Sevan adlandırdığı Göyçə gölünün ətrafında azərbaycanlılar yaşayıblar. Bu da bir həqiqətdir. XX əsrin əvvəlindəki xəritələrə baxsanız Sevan deyil, Göyçəni taparsınız. İrəvanla bağlı da məsələ eynidir. Onlar İrəvanın tarixi hissəsini məhv ediblər. Bunlar hamısı faktlardır. Azərbaycanlılar orada yaşamışlar, o cümlədən mənim ulu babalarım. Bunlar hamısı faktlardır, lakin bizim ərazi iddiasında olmağımız anlamına gəlməməlidir. Bilmirəm bunu eşitmisiniz, yoxsa yox, mən demişəm ki, biz oraya qayıdacağıq. Ancaq mən deməmişəm ki, biz oraya tank üzərində qayıdacağıq. Biz Zəngəzur dəhlizinə qayıdıb orada yoldan istifadə edəcəyiksə, niyə biz İrəvana qayıtmayaq? Hesab edirəm ki, vaxtı gələndə biz bunu da edəcəyik. Bir daha bu suala görə təşəkkür edirəm. Bu sual məsələyə aydınlıq gətirməyə və öz mövqeyimi ortaya qoymağa imkan yaratdı. Biz tariximizi yadda saxlayacağıq, ancaq Ermənistan da daxil olmaqla, heç bir ölkəyə qarşı ərazi iddiamız yoxdur”.

**"Azərbaycan Ordusu"**

# Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 50 illik yubileyi qeyd ediləcək

Aprelin 14-də Prezident İlham Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 50 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ölkədə ordu quruculuğu işində təqdirəlayiq fəaliyyəti nəzərə alınaraq Müdafiə Nazirliyinə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 50 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

Sənəddə qeyd olunur ki, Cəmşid Naxçıvanski adına Hərbi Lisey Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şəxsi təşəbbüsü və bilavasitə rəhbərliyi ilə yaradılıb. Ulu Öndərin daim qayğı ilə yanaşdığı və xüsusi diqqət yetirdiyi bu tədris ocağı ötən müddət ərzində respublikamızda milli peşəkar hərbçi kadrların hazırlanması sahəsində müstəsna xidmətlər göstərib, cəmiyyətdə hərbi peşənin nüfuzunun yüksəlməsində və taleyini hərb sənətinə həsr edən gənclərin sayının davamlı artmasında əhəmiyyətli rol oynayıb. Liseyin yetirmələri müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin formalaşdırılması və möhkəmləndirilməsi işinə dəyərli töhfələr verib, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüşlərdə həmişə ön cəbhədə yer alıblar. Onlar böyük rəşadət nümayiş etdirərək "Vətən Müharibəsi Qəhrəmanı" və "Azərbaycanın Milli Qəhrəmanı" adlarına layiq görülüb, orden və medallarla təltif olunublar. Hərbi liseyin məzunları Vətən qarşısında vəzifə borclarını bu gün də şərəflə yerinə yetirirlər. Hazırda Silahlı Qüvvələrimizdəki zabitlərin əksəriyyəti məhz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır.

# Azərbaycan ilə Belarus arasında hərbi-texniki əməkdaşlıq məsələləri müzakirə olunub



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, aprelin 15-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Belarus Respublikasının Dövlət Hərbi-Sənaye Komitəsinin sədri Dmitriy Pantusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Tərəflər Azərbaycan ilə Belarus arasında hərbi-texniki əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərini, həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələləri müzakirə ediblər.

# Zenit-Raket Qoşunlarında döyüş atışlı təlimlər keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2021-ci ilin döyüş hazırlığı planına əsasən, Hərbi Hava Qüvvələrinin Zenit-Raket Qoşunlarında döyüş atışlı təlimlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimlərdə şəxsi heyət şərti düşmən hədəflərini aşkarlayaraq onların S-125 zenit-raket komplekslərindən məhv edilməsi tapşırıqlarını müvəffəqiyyətlə icra edib.

Təlimlərin əsas məqsədi şəxsi heyətin praktiki vərdişlərinin təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsidir.

# Mərkəzi ərzaq anbarının bölgələrdə yerləşən bölmələrində yenidənqurma işləri görülüb



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi, maddi-texniki təminatının və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar göstərişinə əsasən həyata keçirilən tədbirlər davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlər çərçivəsində mərkəzi ərzaq anbarının bölgələrdə yerləşən bir bölməsində yenidənqurma işləri görülüb. Burada ərzaq məhsullarının qəbulu, saxlanılması və qoşunlara paylanılması üçün lazımi şərait yaradılıb.

Tez xarab olan ərzaqların saxlanması üçün 200 tonluq soyuducu kamera, quru ərzaqların saxlanması üçün ümumi tutumu 1000 ton olan saxlanc, kartof və tərəvəzlərin saxlanması üçün isə ümumi tutumu 200 tonluq saxlanc və toxunulmaz ehtiyat ərzağının saxlanması üçün 140 ton tutumu olan saxlanc binası mövcuddur.

Bundan əlavə, ərazidə quru ərzaqların saxlanması üçün soyutma sistemi ilə təchiz edilmiş 500 tonluq saxlanc binası və tez xarab olan ərzaqların saxlanması üçün 200 tonluq saxlanc binası inşa edilib.

Hazırda bu istiqamətdə fəaliyyətlər davam etdirilir.

# Orduda gənc əsgərlərin hazırlığına xüsusi diqqət yetirilir





Azərbaycan Ordusunun bütün hərbi hissələrində hərbi xidmətə yeni çağırılmış gənc əsgərlərin hazırlığına xüsusi diqqət yetirilir, bu kateqoriyadan olan hərbi qulluqçularla müxtəlif nəzəri və praktiki məşğələlər keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, məşğələlərdə gənc əsgərlərə hərbi intizam qaydaları öyrədilir, onların sıra vərdişləri formalaşdırılır və təkmilləşdirilir. Məşğələ rəhbərləri tərəfindən keçirilən dərslərdə şəxsi heyətə sıra hazırlığının fənn və elementləri öyrədilir.

Hərbi hissələrdə hərbi qulluqçuların fiziki hazırlığına da xüsusi önəm verilir. İdman şəhərciklərində şəxsi heyətlə fiziki hazırlıq üzrə dərslər keçirilir. Dərslər zamanı şəxsi heyət müxtəlif idman qurğularında məşqlər edir, müxtəlif normativlər yerinə yetirir.

Azərbaycan Ordusunda günün nizam qaydasına uyğun olaraq hərbi qulluqçuların asudə vaxtını səmərəli keçirməsi üçün hərbi hissələrdə istirahət guşələri, ideoloji otaqlar mövcuddur. Burada hərbi qulluqçular hərbi mətbu orqanlarının nəşr etdiyi qəzet, jurnal və digər məhsulların yeni buraxılışları ilə tanış olurlar.

# Azərbaycan Ordusu çox böyük uğura imza atıb

Həqiqətən də, Azərbaycan Ordusu çox böyük uğura imza atıb. Erməni ordusuna məxsus çox sayda hərbi texnika, tank, ağır silahlar qənimət kimi ələ keçirilib.

AZƏRTAC xəbər verir ki, bu fikirləri aprelin 13-də Bakıda Hərbi Qənimətlər Parkı ilə tanışlıq zamanı Maltəpə Universitetinin professoru Hasan Ünal deyib.

Professor bildirib ki, Hərbi Qənimətlər Parkında dronlar tərəfindən məhv edilən tanklar, ağır silahlar və zirehli maşınlar var. Bu, Azərbaycanın Zəfərinin, əslində, nə qədər böyük olduğunu göstərir. Belə ki, İkinci Dünya müharibəsində yaşananları xatırlasaq, işğal altındakı torpaqlarını müasir silahlardan istifadə edərək, mülki insanlara maksimum şəkildə zərər vermədən 44 gündə möhtəşəm uğura imza ataraq geri qaytara bilən ikinci dövlət yoxdur.

"Eyni zamanda, bu Qələbə Azərbaycan üçün böyük psixoloji üstünlükdür. İllər idi ki, ermənilər öz ordularının məğlubedilməzliyi ilə bağlı mif yayırdılar. Bunun doğru olmadığı üzə çıxdı. Hazırda Ermənistan buna görə də böyük travma yaşayır. Bu travma çox güman ki, hələ uzun çəkəcək. Azərbaycan lazımi addımlar atır, bölgədə əməkdaşlığı inkişaf etdirir. Ermənistan adekvat tədbirlər görməsə də, Azərbaycan öz yoluna davam edəcək və rəsmi İrəvanı gözləməyəcək", - deyə Hasan Ünal bildirib.

# Bölmə komandirlərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinləri ilə təlim-metodiki toplantı keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, birlik, birləşmə, qoşun qisimləri, əlahiddə bölmə komandirlərinin və xüsusi təyinatlı hərbi təhsil müəssisələri rəislərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinləri ilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 2021-ci ilin birinci rübünün yekunlarına dair toplantı keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, vətən müharibəsində qəhrəmanlıq, əzmkarlıq və fədakarlıq göstərən hərbi qulluqçuların döyüş yolu və qabaqcıl təcrübəsi qeyd edilib.

Toplantıda çıxış edən Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi rəisinin müavini polkovnik Aydın Əyyubov Azərbaycan Ordusu qarşısında qoyulan vəzifələrin müvəffəqiyyətlə yerinə yetirildiyini bildirib. Azərbaycançılıq ideologiyası əsasında hərbi vətənpərvərlik tərbiyəsi və mənəvi-psixoloji hazırlıq səviyyəsinin, o cümlədən hərbi intizamın yüksəldilməsi və digər istiqamətlərdə görülən işlər, həmçinin qarşıda duran vəzifələr barədə toplantı iştirakçılarını məlumatlandırıb, müvafiq sahədə görüləcək işlər barədə Müdafiə nazirinin tapşırıqlarını tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Müdafiə Nazirliyinin Hüquq İdarəsi rəisinin müavini polkovnik Vüqar İsayev hərbi qulluqçuların statusu haqqında qanun layihəsi və hərbi qulluqçuların sosial müdafiəsi sahəsində qanunvericiliyin tələbləri barədə toplantı iştirakçılarına ətraflı məlumat verib.

Tədbirdə Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani çıxış edərək Vətən müharibəsində Azərbaycan Ordusunun döyüş ruhunun, vətənpərvərlik hissinin, qələbə əzminin yüksək olmasında bölmə komandirlərinin ideoloji iş və mənəvi psixoloji təminat üzrə müavinlərinin əvəzsiz xidmətlərinin olduğunu diqqətə çatdırıb.

Toplantıda ordumuzun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığına təsir edən bir çox mövzular ətrafında fikir mübadiləsi aparılıb.

## "Azərbaycanın Qarabağda apardığı müharibə ümumilikdə hərbi əməliyyatların mahiyyətini dəyişdirib"

Bu muzey mənə Azərbaycanın apardığı hərbi əməliyyatların necə diqqətçəkən olduğunu xatırladır. Buradan görünür ki, Azərbaycan hərbi əməliyyatları necə qətiyyətlə, sürətlə və minimum itkilərlə həyata keçirib.

AZƏRTAC xəbər verir ki, bu sözləri ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk Qrupunun keçmiş həmsədri, beynəlxalq ekspert Metyu Brayza aprelin 13-də Bakıda Hərbi Qənimətlər Parkı ilə tanışlıq zamanı jurnalistlərə açıqlamasında deyib.

M.Brayza qeyd edib ki, Azərbaycanın apardığı müharibə ümumilikdə hərbi əməliyyatların bütün mahiyyətini dəyişdirib.

ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda Prezident İlham Əliyevlə görüş barədə fikirlərini bölüşən xarici ekspert bildirib: "Azərbaycan Prezidenti İlham Əliyevlə bugünkü görüşümüz çox səmərəli oldu. Tədbirdə bir çox mövzular, həmçinin bölgədə bundan sonrakı vəziyyət barədə fikirlər səsləndirildi. Düşünürəm ki, belə görüşlərin çox böyük önəmi var".

# Raket-artilleriya batareyalarının döyüş atışlı taktiki təlimləri keçirilir



*Müdafiə nazirinin təsdiq etdiyi 2021-ci ilin döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunda Raket və artilleriya qoşunları bölmələrinin döyüş atışlı taktiki təlimləri keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, şəxsi heyətin peşəkarlığının artırılması məqsədilə keçirilən taktiki təlimlərdə müxtəlif çaplı toplardan və digər raket-artilleriya qurğularından nümunəvi döyüş atışları icra olunub. Real döyüş şəraitinə uyğun keçirilən təlimlərdə təyin olunan şərti hədəflər qoşunlarımızın dəqiq atəşi ilə məhv edilib.

Vətən müharibəsində əldə edilən təcrübə nəzərə alınmaqla bölmələrin fasiləsiz idarəedilməsi, onların digər qoşun növləri ilə qarşılıqlı əlaqədə döyüş fəaliyyətinin təşkili üzrə praktiki vərdişlərin təkmilləşdirilməsinə yönəldilən təlimlər davam edir.

# Naxçıvan Qarnizonu Qoşunlarında komandir hazırlığı sistemində növbəti məşğələlər keçirilib



"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən, bölük, batareya komandirləri və müavinləri ilə komandir hazırlığı sistemində məşğələlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, komandir hazırlığı məşğələlərində əsas diqqət zabitlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə, bölmələrin idarə edilməsi üzrə bacarıqlarının və komandir keyfiyyətlərinin təkmilləşdirilməsinə yönəldilib.

İlk olaraq zabitlərə sıra baxışı keçirilib və məşğələlərə hazırlıqları yoxlanılıb.

Praktiki məşğələlər zamanı zabitlərə müdafiə döyüşü üzrə hava hücumundan müdafiə, raket-artilleriya və tank bölmələrinin fəaliyyəti nümayiş olunub.

Qarnizonun Təlim-Tədris Mərkəzində zabitlərə hərbi topoqrafiyadan, hüquq və mənəvi-psixoloji hazırlıqdan nəzəri dərslər keçirilib.

Komandir hazırlığının sonunda zabitlərin ümumqoşun, ixtisas, topoqrafiya və fiziki hazırlıq səviyyələri yoxlanılıb.

Məşğələlərin yekun təhlili aparılan zaman məqbullar götürülərkən zabitlərin yüksək nəticə göstərdikləri bildirilib, bölmələrin döyüş hazırlığının yüksəldilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.



*Tarix yazan oğullar*

# "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün"

***Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı Vətən müharibəsinə başladı. 30 illik həsrətə son verməyin vaxtı idi, düşmən tapdağı altında inildəyən torpaqları xilas etməyin zamanı yetişmişdi. Bu 30 il həm də nə igidlər yetişdirmişdi: torpaq həsrətli, yurd sevgili, intiqam nəfəsli ərənlər.***



Şahbuz rayonunun Keçili kəndindən olan Həmzəyevlər ailəsi də oğullarını məhz belə yetişdirmişdi: vətənpərvər, cəsur, şirürəkli. Keçili Şahbuz rayonunun ucqar dağ kəndidir. Əzəmətli dağları kimi mərd, cəsur insanları ilə sayılıb, seçilib tarixən bu kənd. Ailənin böyük oğlu Mərhəmətin uşaqlığı ana yurdun dağında, daşında, qayalarında keçmiş, hər qarışını sevmiş, qorumaq, müdafiə etmək, Vətənin keşiyini çəkmək arzusu onu hərb peşəsini seçməyə istiqamətləndirmişdi. Anası Qərənfil xanım deyir ki, hərbçi olmaq, hərbi formanı daşımaq uşaqlıqdan arzusuna çevrilmişdi. Atalar yaxşı deyib: "Niyyətin hara, mənzilin ora". Keçili kənd tam orta məktəbinin 8-ci sinfini bitirən Mərhəmət sənədlərini Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə verir. İmtahandan müvəffəqiyyətlə keçib Hərbi liseyin kursantı adını qazanan Mərhəmət öz təlim-tərbiyəsi, biliyi ilə müəllim və zabitlərinin rəğbətini qazanır. 2015-2019-cu illərdə Azərbaycan Ali Hərbi Məktəbini bitirib, "N" hərbi hissəsində xidmətə başlayır.

İllərdir ürəyində bəslədiyi arzusu idi torpaqlarımızı azad görmək. Murovdağ istiqamətindən döyüşlərə atılan leytenant Mərhəmət Həmzəyev əsgərləri ilə birlikdə şücaət göstərir. 3 nəfər yaralı yoldaşını döyüş meydanından çıxarsa da, özünü xilas edə bilmir, düşmən gülləsinə tuş gəlir. Mərhəmət özündən sonra iz buraxır: qəhrəmanlıq, Vətənə, torpağa dərin köklərlə bağlılıq izi.

Oktyabrda şəhadətə qovuşsa da, nəşi tapılmır. İtkinlər siyahısında olan Mərhəmət Həmzəyevin nəşi dekabrın 22-də tapılaraq doğulub boya-başa çatdığı Keçili kəndinə göndərilir.

Atası Rizvan kişi Mərhəmətdən qalan fotolarını bizə göstərir, oğlu haqqında qürurla bəhs edir. "Oğul düşmən çəpəridir. Yoldan ötənlər Mərhəmətin məzarını deyil, bir igidin, bir düşmən çəpərinin daş abidəsini görürlər. Gələcək nəsillərə qalacaq olan bu abidə "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün", - mesajını ötürəcək.

Qəhrəmanlar yalnız döyüşdə əldə silah tutan oğullar deyil, bir də bu qəhrəmanları böyüdən analar var: qəhrəman analar! Qərənfil ana kimi. Bu gün onun taleyinə hicran yaşamaq düşsə də, "oğlum zirvəyə çatdı", - deyir. - Tovuz döyüşlərinin də iştirakçısı olmuşdu Mərhəmət. General-mayor Polad Həşimovun şəhid olması bütün hərbçilər kimi, Mərhəməti də sarsıtmışdı, intiqam hissilə alışıb-yanırdı. Biz düşməndən bunun qisasını almalıyıq, - deyirdi. Torpaqlarımızı azad görmək elə bizim də arzumuz idi. Ali Baş Komandanımızın rəhbərliyi altında bu torpaqları azad etmək şərəfi bizim böyütdüyümüz övladlara nəsib oldu.

Aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dedi: "Hərbi Qənimətlər Parkına gələn hər bir insan ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu Qələbəni əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün bu maneələri dəf edərək düşməni məğlub etdilər".

Bəli, 44 günlük müharibənin qələbə ilə başa çatması hər kəsi ürəkdən sevindirir. Hədəf də elə bu idi: bu yolda şəhid də olacaqdı, qazi də. Vətən torpaqları indi 30 illik işğala son qoyan bu qəhrəman oğulların şücaəti sayəsində azaddır. Bu şərəfli missiyanı yerinə yetirən, həsrətə, hicrana son qoyan oğullar - şəhidlər heç zaman unudulmayacaqlar. İllər ötəcək, əsrlər keçəcək, gələcək nəsil tarixin zəfər dolu şanlı səhifələrini qürurla izləyəcək, oxuyacaq, öyrənəcək. İşğala son qoyan, bu zəfəri bizə yaşadan sıravi əsgərindən tutmuş generalınadək hər biri hörmət və ehtiramla anılacaq. Leytenant Mərhəmət Həmzəyev də həmçinin.

**Ruhiyyə RƏSULOVA,**
**Naxçıvan Televiziyasının baş redaktoru**

*Medallı igidlərimiz*

# Şuşada "Gözün aydın, Vətən!" deyənlərdən biri



***Yeniyetmənin xarakterinin formalaşmasına mühitində onu əhatələyən ictimai qrupların da, təhsil aldığı məktəbin də təsiri olur. Bu amillər dövlət müstəqilliyimizin bərpasından sonra daha da çevikləşib, yəni, təsiri daha təsirli, daha düşündürücü olub. Birinci Qarabağ müharibəsində qəhrəmanlıqlara görə, qəhrəmanlara görə; yeniyetmə bu qəhrəmanlıqları, qəhrəmanların ömür yolunu düşüncələrindən ürəyinə köçürə-köçürə gəncləşib...***

Yaşar Əsgərov ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə şəhid olub. Orta məktəblərdən birini onun adı şöhrətləndirir. Şagirdlər hər səhər onun ruhunu qardaş sədaqətiylə salamlayırlar. Bu salamlama "Vətəni sənin kimi sevəcəyik!" - andına yozulmalıdı...

Eşqin Məmmədov Yaşar Əsgərov adına orta məktəbin məzunudu.

"Mənim tərcümeyi-halımda şəhid ruhunun da xeyir-duası var. Mən Vətənimiz üçün dumduru ömür yaşayacam. Hərbi xidmətimin ilk günündə əsgər yoldaşlarıma da sözarası belə demişdim", - Eşqin Məmmədov Vətən müharibəsinin xoş ovqatını yaşadıqları anlarda komandiriylə könül söhbətində belə deyib. Azərbaycan əsgərinin xarakterini milli mentalitetimizdən süzülüb gələn bu kəlmələr də ümumiləşdirir. Bu xarakter möhtəşəm döyüş hazırlığının, dönməz döyüş əzminin, kükrək qələbə ruhunun tərkib hissələrindən biri olub.

2018-ci ildə hərbi xidmətə çağırıldı. Xidmət müddətində çağırışçı olduğu illərin düşüncələrini gerçəkləşdirmək istədi; əsl vətəndaş olmağın başlanğıcı yaxşı əsgər olmaqdır. Yaxşı əsgər oldu Eşqin Məmmədov...

İdmana marağı vardı. Hər maraq sevgiyə çevrilmir; Eşqinin bu marağı sevgiləşdi. Güləşlə məşğul olmağa başladı. Yaxşı idmançıydı. Respublika və Silahlı Qüvvələr birinciliklərində dəfələrlə mükafata layiq yer tutdu. Bu, xidmət illərində də onun əsgər yoldaşlarıyla ünsiyyətində gərəkli oldu - neçə-neçə əsgər də onunla birlikdə məşqlərə başladı, yəni, Eşqin müəyyən mənada hərbi hissədə idmanın təbliğatçısı idi...

Eşqin həqiqi hərbi xidmətdən tərxis olundu. Digər əsgər yoldaşları kimi onun da qəlbində gerçəkləşməyən bir istək qalmışdı: ordu sıralarından qalib əsgər kimi tərxis olunmaq. Bu təəssüf vətənsevərliyin təəssüfü idi...

Azərbaycan Ordusunun hissələri Ermənistan silahlı birləşmələrinin təmas xətti boyunca müxtəlif istiqamətlərdən hücumunun qarşısını qətiyyətlə aldı. Ali Baş Komandanın döyüş əmri ilə əks-hücum əməliyyatı başladı. Xalq inanırdı ki, vətənpərvərlik işğalçılığa qalib gələcəkdir. Xalq sərkərdəsinə inanırdı, ordusuna güvənirdi. Bu əməliyyatın sonunda qələbə görən xalq ruhən döyüşlərin iştirakçısıydı...

Ölkədə qismən səfərbərlik elan edələndə Eşqin Məmmədov da döyüşlərə çağırıldı.

Vətən müharibəsinin ilk günlərindən Eşqin Məmmədov da döyüşlərdəydi.

Hərbi xidmətdə olanda torpaqlarımızı işğaldan azad etmək üçün Ali Baş Komandanın əmri ilə başlayacaq döyüşlərdə hamısı iştirak etmək istəyirdi. Hamısı bu təəssüflə tərxis olunmuşdu. İndi döyüşlərdəydilər. Qələbə üçün döyüşəcəkdilər. 28 il məcburi köçkünlərin ürəyinə, ömrünə yük olan ağrı-acılara son qoymaq üçün döyüşəcəkdilər.

Cəbrayılda döyüşdü Eşqin. "İlk döyüşdən qələbə üçün döyüşürdük. Komandirimiz deyirdi ki, hər döyüşü son döyüş ruhuyla başa çatdırmalıyıq. Yəni, elə döyüşməliyik ki, son döyüşü tezləşdirək. Döyüşdən əvvəl yoldaşlarımla söhbətləşəndə şəhidlərimizi də xatırlamışdıq. Onların da əvəzindən döyüşəcəyimizi qət etmişdik...", - Eşqin belə dedi.

Döyüşlərə Cəbrayıldan başlayıb. Sonra Füzulidə, daha sonra Xocavənddə döyüşdülər. Xocavənddə mövqe qələbəsindən sonra komandirləri dedi: "Döyüş-döyüş qələbəyə yaxınlaşırsınız. Bütün döyüşlər qələbə üçündü. Komandanlıq harada döyüşməyi əmr etsə, orada da döyüşəcəyik. Torpaqlarımız işğaldan azad edilənə kimi döyüşəcəyik. Elə döyüşməliyik ki, qələbə gününü tezləşdirə bilək".

Eşqin Məmmədov indi xatırlayır ki, Xocavənddə yaralı döyüşçünü sürünə-sürünə döyüşdən çıxardanda yaralının rəngi avazıdığına görə bir qədər təntiyib. Döyüşdən sonra komandiri ona təşəkkür elan edib. Yaralını tibb məntəqəsinə vaxtında çatdırdığına, yaralı döyüşçünün həyatı xilas edildiyinə görə...

"Şuşanın işğaldan azad edilməsi uğrunda döyüşlərdə iştirak edəcəyimizi eşidəndə elə bil dünyanı bizə verdilər. Vətən müharibəsi başlayandan bəri bu niyyətlə yaşayırdıq. Ağır döyüşlər getdi... Şuşada olanda üzü göylərə sayımız qədər hayqırtı eşidildi: Gözün aydın, Vətən! Ruhunuz şad olsun, şəhid qardaşlarımız!..".

"Döyüş yoldaşlarımı - gəncəli Elnur Məmmədovu, qazaxlı Elçin Mustafayevi, Allahverdi Verdiyevi, Röyal Həsənovu, şəmkirli İnqilab Verdiyevi heç zaman unutmaram. Hər biri qəhrəmanlıqla döyüşdü", - döyüşçünün yoldaşları haqqında dedikləri eşidənə, təbii ki, könül xoşluğu verir...

Eşqin Məmmədov "Şuşanın azad olunmasına görə" medalı ilə təltif olunub...

Vətən müharibəsi tarixləşdi. Azərbaycan Ordusunun tarixi zəfəri kimi tarixləşdi. Torpaqlarımızın işğaldan azad edilməsiylə tarixləşdi. Bu tarixi yazanların sırasında Eşqin Məmmədov da var. Orta məktəbdə oxuyan Emil qazi qardaşıyla qürurlanır. "Onların işğaldan azad etdiyi torpaqları biz qoruyacağıq", - dedi...

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

*Vətən müharibəsi: Zəfər ovqatı*

# Yazdığınız tarixin işığında yazıram, Azərbaycan əsgəri!

*Ötən ilin noyabrın 8-dən üzü bu yana ruhu göylərdən enməyənlərdən biri də mənəm...*

Həmin günü tarixləşdirən Zəfərin qüdrətidi ki, xəyallarım Cıdır düzündə dolaşır, ağacların budaqlarına sarılır, İsa bulağının suyunu ovuclayır, Gövhər ağa məscidinin qarşısında üzü Məkkəyə sarı dayanıb salavat çevirir. Hamımız bu Zəfəri qazananları ruh qardaşımız bilirik.

Bu Zəfər dövlətin, dövlətçiliyin Zəfəridi, bu ovqat bu səbəbdən xalqın ovqatıdı - tarixi ovqatdı. Tarixi ovqatlar yaşadılır, yaşayır...

Hərbi hissədə qalib hərbçilərlə kəlmələşirdik. Döyüşənlərlə döyüşlərdən, ayrı-ayrı mövqe qələbələrindən, qəhrəmanlıqlardan danışmışdıq. Zabitlərdən birinin gözlənilməz etirafı bayaqdan bəri ürəyimi silələmiş qüruru, nizamı, düzümü tərpənişən düşüncələrimin bürüncəyinə döndərdi: "Qələbələr döyüşlərin nəticəsiydi, hərbi hissədə qarşılanmağımız qazanılmış qələbələrdən sonra yaşadığımız ən gözəl anlar idi. Qarşılanmanın ovqatı qələbənin ovqatını elə gözəl tamamlayırdı ki!.."...

Qarşılanma mərasimi ilə bağlı marağımı ifadə edən sorğulara aldığım cavablar hərbçinin vəzifə borcu, vətəndaşlıq borcu bildim, suallara vəfa borcu, jurnalist borcu, vəzifə borcu kimi söz ömrü verdim.

Qarşılanma mərasimində ümummilli lider Heydər Əliyevin, dövlət müstəqilliyimizin bərpa edilməsi uğrunda mübarizədə, ərazi bütövlüyümüz uğrunda gedən müharibədə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov sentyabrın 27-də əks-hücum əməliyyatı kimi başlayan, Ali Baş Komandanın əmri ilə Vətən müharibəsi kimi davam edən döyüşlərin mahiyyətindən danışdı, fikrini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin döyüşlər getdiyi vaxtlarda xalqa müraciətində dediyi bir kəlam ilə tamamladı: "Biz haqlıyıq, biz öz torpağımızda vuruşuruq, öz torpağımızda şəhidlər veririk. Bizim savaşımız müqəddəs savaşdır!". Sonra döyüşlərdən qələbə ilə qayıdanlara xitabən "Siz Vətənin adına layiq xidmət edirsiniz, Vətənin adına layiq Zəfər qazandınız. Müharibədə döyüş hazırlığı qədər qətiyyət, cəsarət, döyüşçünün Vətən sevgisi, döyüşçü yoldaşının ruh qardaşı olması da vacibdir. Təsdiqlədiniz ki, hər biriniz belə hərbçisiniz. Siz qəhrəman olmaq üçün döyüşmürdünüz, qəhrəmanlıqla döyüşürdünüz. Döyüşə-döyüşə qələbələr qazanırdınız, qələbələr qazana-qazana döyüşürdünüz. "İgidin sağı-solu olmaz", - atalar sözüdü. Siz dənizçi olsanız da, quruda döyüşdünüz. Siz məqamında Vətən naminə bütün tapşırıqları yerinə yetirməyə hazırsınız. Sizin də döyüş yolunuz Vətən müharibəsinin tarixidi..."...



Zəfərə ad olan qarşılanma mərasimindən aylar keçib, ovqatı yaşanmaqdadı. Döyüşçülərin dediklərini 8 noyabr gününün nurunda dinlədim.

Zabit Tariyel Zöhrabov:

- Cəbrayıl rayonunun Əmirvarlı kəndi istiqamətində ağır döyüşlər gedirdi. Düşmənin müqavimətini yarmaq olmurdu. Bu istiqamətdə təxminən 10 gün döyüşlər getmişdi. Düşmənin ikinci eşelonunu keçmək böyük problem yaradırdı. Keçid nöqtəsi müəyyənləşdirilsə də, düşmənin müqavimətini qırmaq üçün əlavə vasitələr, üsullar araşdırılırdı. Döyüşü idarə edən heyət Tumasdağ istiqamətində ərazinin kəşfiyyatına çıxdı. Düşmənin sağ arxa mövqeyindən keçdik. Azca irəliləmişdik ki, beş düşmənlə üz-üzə gəldik. Ərazinin kəşfiyyatı döyüşü aparmaq üçün əlverişli taktiki üstünlük yaratdı. Atışma düşmənin diqqətini əsas hücum istiqamətindən yayındırdı. Hücumumuz mövqe qələbəsi ilə nəticələndi...

Miçman Allahverən Rəhimli də bu döyüş haqqında danışdı. Dedi ki, kəndin azad edilməsində strateji baxımdan bu yüksəkliyin olduqca böyük əhəmiyyəti var idi. "İki yarımqrupla hücuma keçdik. Qrup komandirinin göstərişi ilə əmrin icrasına ikinci qrup bir atış qədərincə sonra başladı. Qüvvələrini birinci yarımqrupun hücumuna yönəldən düşmən ikinci yarımqrupun hücumuna qarşı atışı bölüşməyə macal tapmadı. Döyüşçülərimiz düşmənin anlar çəkən çaşqınlığını hücumun sürətinin artırılmasına, atışın tempinin daha da yüksəldilməsinə vasitə edərək daha yüksək əzmlə vuruşdu. Döyüş çox çəkmədi. Qələbə qazandıq".

Öyrəndim ki, qələbəni bir nəfəs dərimi qədər yaşamamış düşmən əks-hücuma keçib. Döyüşçülərimiz bu gözlənilməzliyi də qətiyyətlə dəf edib...

Eyni döyüş haqqında birbirini tamamlayan, biri digərinin başlanğıcı olan təəssüratlar dinləyənə daha əhatəli informasiya verir. Əmirvarlı kəndi uğrunda döyüşlər Vətən müharibəsində həmişə xatırlanacaq döyüşlərdən olub. Zabit Sirac Siracov da Əmirvarlı kəndi uğrunda gedən döyüşlərdən danışdı. Düşmən Əmirvarlı kəndi istiqamətində nisbətən ciddi müqavimət göstərirmiş. Yaradılmış "val"ın bir ucu körpüyə çıxdığına görə düşmən artilleriya atışlarından daldalana bilirmiş, artilleriya atışı bir qədər səngiyəndə yenə "val"dan döyüşçülərimizin irəliləməsinə atəş səddi yaradırmış. Düşmənin yüksəkliklərdə yerləşdirdiyi minaatanların atışları əmrin operativ yerinə yetirilməsində müəyyən çətinliklər yaradırmış. Bunlara görə döyüşlər bir qədər çətinləşib. Döyüşdən əvvəl şərait taktiki baxımdan düzgün müəyyənləşdirilib. Sirac Siracovun əmri ilə operativ manevrlə hücum davam etdirilib. Az sayda döyüşçü ilə düşmənin üstün canlı qüvvəsi məhv edilib.

Zabit Orxan Qədirov başqa bir əməliyyatı xatırladı:

- Rəhbərlik etdiyim qrup Aşağı Maralyan kəndindən düşmənin sığındığı "val"ı keçdi. Yuxarı Maralyan istiqamətində döyüşü davam etdirdik. "Dörd yol" adlanan ərazini keçdikdən sonra məktəbin arxa hissəsinə adladıq. Düşmənin atəşi altına düşürdük. Buna görə manevr edərək sol cinaha doğru irəlilədik. Relyef baxımından dərəyə bənzər ərazini, xırda sulu çayı keçib düşmənin sol cinahından döyüşə başladıq. Belə gözlənilməzlik düşmənin müqavimətini sarsıtdı. Bir saata qədər çəkən döyüşdə düşmən ağır tələfat verərək geri çəkildi...

Miçman Rahil Məmmədov:

- Qubadlının Xanlıq kəndi yaxınlığında körpü partladıldığından döyüş şəraiti xeyli çətinləşmişdi. Düşmən həm də yüksəklikdən atış aparırdı. Bu atışları intensiv atışla susdura bilsək də, sol tərəfdən iriçaplı silahların atəşi altına düşmüşdük. Onda qrup komandirimiz üç istiqamətli zərbə həmləsinə qərar verdi. Əmr sürətlə yerinə yetirildi. Üç düşmən öldürüldü, biri əsir götürüldü, sağ qalanlar qaçdı. Döyüşdə düşmənin bir ədəd TƏIR qurğusu qaldı...

Zabit Babək Şirinov:

- Düşmən səngər, blindaj, döyüş mövqeyi kimi istifadə etmək məqsədilə Cəbrayıldakı bəzi binaları uçurub-dağıtmayıbmış. Məktəb də dağıdılmamışdı. Ora düşmənin gücləndirilmiş müdafiə mövqeyi imiş. Bura sonrakı müdafiə döyüşlərinə görə ciddi mühafizə edilirdi. Məktəbə sığınmış düşmən qruplaşması məhv edilməli idi ki, Cəbrayıl istiqamətində gedən döyüşdə ciddi müqavimətlə üzləşilməsin. Qruplardan birinə mən rəhbərlik edirdim. Döyüşün gedişində aydın oldu ki, düşmən ciddi müdafiə olunur. Ona görə qrupun bir hissəsi mənim əmrimlə atışa-atışa manevr edərək düşmənin arxasına sıza bildi. Bu, döyüşün taleyində mühüm rol oynadı. Məktəbdə mövqelənmiş düşmən qruplaşması məhv edildi.

Zabit Orxan Qədirov:

- Döyüşə Cocuq Mərcanlı istiqamətindən başladıq. Saat 4 olardı. Rabitə ilə qrupu öndə olan idarəetmə məntəqəsinə gətirmək əmr olundu. Qrupa hazırlıq əmri verdim, qısa müddətdə deyilən yerə gəldik. Saat 6 olardı. Qarşıdakı torpaqları azad etməliydik. Şəxsi heyəti düzərək döyüş əmri verdim, bu döyüşlərin də torpaqlarımızın işğaldan qurtuluş döyüşü olduğunu bildirdim. Qrupda yüksək döyüş əzmi, qələbə ruhu vardı. İki qrupla Cocuq Mərcanlı kəndinə gedən yolun üzərindən düşmən mövqelərinə gizlincə sızmağa başladıq. Bizdən əvvəl orada olan qruplarla koordinasiya yaratdıq. Həmin qrup bizim qrupu istiqamətləndirməyə başladı. Düşmənin "val"ını keçən qruplara çatdıq. Qrupa irəli getmək əmri verdim. Tapşırığa əsasən biz dəmir yolunun sağı ilə, Ziya Feyziyevin rəhbərlik etdiyi qrup Araz çayının sahili boyunca hərəkət etməli idi. Relslər söküldüyündən dəmir yolunu tapa bilmədik. Məcburən relyefdə oriyentirləşmək üçün avtomobil yoluna istiqamətləndik. Yolu sağımızda tutaraq qamışlıqla sakit şəkildə irəlilədik. Aşağı Maralyan kəndinin yaxınlığında azca nəfəs dərib yenə irəlilədik. Yuxarı Maralyan kəndinə çatanda öyrəndik ki, Ziya Feyziyevin rəhbərlik etdiyi qrup Araz çayının kənarında yerləşən zastavanı düşməndən azad edib...

Zabit Ruslan Abayev:

- Qrupumuz Əmirvarlı kəndi istiqamətində gedən döyüşlərdə düşmənin 3-cü eşelonunun məhv edilməsində də, Xudafərin yüksəkliyinin, Xocavənd rayonunun Qızılqaya yüksəkliyində düşmənin müşahidə məntəqəsinin alınmasında da qətiyyətlə döyüşdü. Yüksəkliklər uğrunda döyüşlərdə düşmənin müqavmətini sarsıtdıq. Ağır itkiyə məruz qalan düşmən geri çəkildi...

Miçman Elçin Qasımlı:

- Qubadlı istiqamətində gedən döyüşlərin birində qrup komandirimizin göstərişi ilə kiçik bir manevr etdik: atəşi azca səngidib bir qədər geriyə çəkildik. Düşmən elə bildi ki, geri çəkilirik. Mövqelərindən atış üzünə çıxdılar. Qəfil hücuma keçdik. Gözlənilməz hücum düşməni çaşdırdı. Qələbə qazandıq...

Miçman Türkay Nərimanov:

- Xocavənd rayonunun ərazisindəydik. Kəşfiyyat müəyyənləşdirmişdi ki, Qızılqaya yüksəkliyində düşmən taborunun dayaq məntəqəsi var. Bu dayaq məntəqəsi döyüşlərin gedişində ciddi maneədir. Döyüşlərdə itki verməmək məqsədi ilə bu məntəqə çevik hücumla məhv edilməliydi. Döyüş əmrinin bir-biri ilə qarşılıqlı əlaqədə olan iki qrupun yerinə yetirməsi planlaşdırılmışdı. Döyüşün bütün təfərrüatları, ehtimal edilən gözlənilməzliklər nəzərə alınmışdı.

Bilirdik ki, ciddi müqavimətlə üzləşəcəkdik, ağır döyüş olacaqdı - düşmən yüksəklikdəydi, biz hücumla yüksəkliyə çatmalıydıq. Bir qədər getdikdən sonra qrup komandirinin əmri ilə qarşı tərəfə əl qumbarası ata-ata irəlilədik. Düşmən qumbara qəlpələrindən qorunduğu müddətdə irəliləyirdik, yenidən qumbara atırdıq. İşğalçılar bizim güllə məsafəsində olduğumuzu dərk edəndə çaşdılar, çaşqınlıqla atışa-atışa geri çəkilmək istədilər. 30-40 dəqiqə çəkən döyüşdə səkkiz düşmən öldürüldü, qalanları - təxminən 50-60 nəfər qaça bildi. Yüksəklik qəsbkarlardan azad edildi....

Təəssüratları istər ayrılıqda, istərsə də vəhdətdə müharibə tarixi bildim...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir.

**Suallar:**

**1. Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir.**

**2. Müasir Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin əsəridir.**

### Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımızın tarixində ümummilli liderimizin şəxsiyyəti, onun siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. Tarix göstərir ki, xalq üçün yaşayanlar, qurub-yaradanlar, həyatlarını onun yolunda məşəl kimi yandıranlar ölmürlər, millətlə və xalqla birlikdə əbədi ömür sürürlər. Ulu öndər Heydər Əliyevin ömrü məhz bu cür məşəl kimi yanan həyatın bariz nümunəsi idi. Ulu Öndər həmişə deyirdi ki, milli ruhu və milli varlığı müdafiə, eyni zamanda mühafizə etməyin, milli maraqları gerçəkləşdirməyin ən uğurlu forması müstəqil milli dövlətdir. Odur ki, milli-mənəvi dəyərlərlə yanaşı, milli dövlətçiliyin də qorunmasını, inkişafını və dünyaya inteqrasiyasını siyasi fəaliyyətinin əsas hədəfləri hesab etmiş, özünün mənalı ömrünü bütünlüklə bu məqsədlərə həsr etmişdir.

Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi ümummilli lider Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Müstəqilliyin ilk illərində ölkənin məruz qaldığı təcavüzlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələri, habelə ölkə daxilində vətəndaş müharibəsinin reallığa çevrildiyi bir şəraitdə xalqımızın yeganə ümidi dəmir iradəyə, yüksək idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə malik harizmatik lider olan Heydər Əliyevlə bağlı olmuşdur. Məhz ulu öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ulu Öndərin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Azərbaycanın dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması, neft sənayesinin müasir tələblərə uyğun infrastrukturunun qurulması, neftin Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk boru kəmərləri vasitəsilə şaxələnmiş şəkildə nəqli bilavasitə ümummilli lider Heydər Əliyevin xidmətləridir.

Azərbaycanda qeyri-neft sektorunun uğurla inkişaf etdirilməsi də dahi şəxsiyyət ümummilli lider Heydər Əliyevin uzaqgörənliyinin məntiqi nəticəsidir.

Postsovet məkanında analoqu olmayan cəsarətli qərarları ilə ümummilli lider Heydər Əliyev torpağın şəxsi mülkiyyətə verilməsi ilə ölkəmizin ərzaq təhlükəsizliyini təmin etmiş oldu. Bu gün müxtəlif kənd təsərrüfatı komplekslərinin uğurlu fəaliyyəti onun aqrar siyasətinin parlaq təzahürüdür.

Ulu öndərin vaxtilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması ilə həyata keçirməyə başladığı müdrik siyasəti milli ordumuzun formalaşması və Azərbaycan Silahlı Qüvvələrinin yaradılması mərhələlərindən keçərək onun Cənubi Qafqazda aparıcı hərbi qüvvə olmasına gətirib çıxarmışdır.

Ana dilimizin dövlət dili kimi təsbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində ümummilli lider Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.

### Müasir Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin əsəridir

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu müəyyənləşmiş, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə qarşılıqlı münasibətlər qurulmuşdur. Onun uğurlu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir. Ulu Öndərin beynəlxalq aləmdə atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Azərbaycanın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişmiş, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır.

Dahi ümummilli lider Heydər Əliyev Böyük İpək Yolunun mühüm mərkəzi olan, mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən ölkəmizi dünyada tolerantlığın və dözümlülüyün məkanı kimi tanıtmışdır. Onun beynəlxalq səfərləri, siyasi, ictimai və dini xadimlərlə görüşləri ölkəmizin yeni imicinin formalaşmasına xidmət edirdi.

Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində ümummilli lider Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz ümummilli lider Heydər Əliyev fəaliyyətinin nəticəsidir.

Ümummilli lider Heydər Əliyevin XX əsrdə totalitarizmin Azərbaycana qarşı törətdiyi faciələrin davamı kimi qanlı 20 Yanvarı xalqımız əleyhinə hərbi, siyasi və mənəvi təcavüz kimi qiymətləndirməsi onun ömrü boyu sadiq qaldığı siyasi məfkurəsinin və yüksək vətənpərvərliyinin yeni siyasi şəraitdə təcəssümü idi. Mövcud siyasi, iqtisadi və sosial böhran müstəqilliyimizin ilk illərində Azərbaycanı vətəndaş müharibəsi həddinə çatdırdığı bir dövrdə ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi gün - 1993-cü ilin 15 iyunu tariximizə Qurtuluş Günü kimi daxil olmuşdur. Bu qurtuluş qısa bir zamanda özünü nəinki siyasətdə, həm də iqtisadiyyatda, təhsildə, mədəniyyətdə və insanların gündəlik real həyatında büruzə vermişdir.

Ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk günlərdən təcrübəli siyasətçi, mahir diplomat kimi ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi istiqamətində fəaliyyətə başladı. Həmin dövrdə Azərbaycanın silahlı qüvvələrinin böyük bir hissəsi ayrı-ayrı cinayətkar əllərdə cəmləşərək siyasi məqsədlərə ölkə daxili çəkişmələrə, hakimiyyət uğrunda mübarizələrə cəlb edildiyi üçün, vətən torpağı müdafiəsiz qalmışdı, ərazilərimiz işğal olunurdu. İlk növbədə qeyri-qanuni silahlı dəstələr buraxıldı, siyasi təxribatların, dövlət çevrilişi cəhdlərinin qarşısı məharətlə alındı. Uzun sürən daxili çəkişmələrdən sonra, ölkədə ilk dövrlərdə kövrək olsa da, ictimai-siyasi sabitlik yarandı. Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyinin və müdrikliyinin növbəti göstəricisi Dağlıq Qarabağ müharibəsində atəşkəs istiqamətində danışıqlara başlaması oldu. Həmin dövrdə Azərbaycan ordusunun əks-hücumlarından qorxuya düşən erməni tərəfi də danışıqlara getdi və 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs elan olundu. Cənubi Qafqaz regionunda müharibənin dayanması və sabitliyin yaranması xarici neft şirkətlərinin Azərbaycana inamını artırdı və həmin ilin sentyabrında ARDNŞ-lə dünyanın aparıcı neft şirkətləri arasında, respublikamızda iqtisadi tərəqqinin əsasını qoymuş "Əsrin müqaviləsi" imzalandı. Azərbaycanda iqtisadi tənəzzülü cilovlamaq, ordu quruculuğu ilə məşğul olmaq üçün vaxt və imkan yarandı. Bu gün hamıya aydındır ki, o zaman müdrik dövlət başçımız tərəfindən bu taleyüklü addımlar atılmasaydı, Azərbaycan dövlətini yaratmaq da mümkün olmayacaqdı.

Bundan ötrü dünya miqyasında qəbul olunan və tətbiq olunan bütün variantları öyrənmək, onlardan bəhrələnməyi bacarmaq lazım idi. Ümummilli liderimiz dövlətimizə fayda verə biləcək bütün mütərəqqi ideyaları Azərbaycanın reallığını nəzərə alaraq, ardıcıllıqla həyata keçirirdi. Azərbaycanı düçar olduğu bəlalardan qurtarmaq və onu dünyanın sivil ölkələri sırasına çıxarmaq üçün o, öz nadir intellektindən və tükənməz enerjisindən məharətlə istifadə edirdi. Bu bir həqiqətdir ki, millətin gücü və nüfuzu onu təmsil edən rəhbərin şəxsiyyətindən, diplomatiyasının səviyyəsindən birbaşa asılıdır. Dünyanın aparıcı dövlətlərinin respublikamıza marağı bir tərəfdən onun zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi ilə əlaqədar idisə, digər tərəfdən Ümummilli Liderimizin yürütdüyü praqmatik və iqtisadi cəhətdən perspektivli siyasətlə, bu siyasətin yaratdığı ictimai-siyasi sabitliklə bağlı idi. Artıq siyasi və iqtisadi islahatların aparılması və respublikamızın dünya birliyinə inteqrasiya olunması üçün hüquqi baza-konstitusiya yaradılmışdı. Azərbaycan ümummilli lider Heydər Əliyevin müdrik rəhbərliyi ilə mütərəqqi beynəlxalq təcrübəyə əsaslanıb gələcəyə doğru inamla addımlayırdı.

Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan infilyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üz-üzə qalmış Azərbaycanı ümummilli lider Heydər Əliyev qısa bir zamanda iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirə bildi. Dahi şəxsiyyət Heydər Əliyevin qurduğu dövlətin iqtisadi siyasəti əhalinin sosial müdafiəsini daim diqqət mərkəzində saxlamaqla sosial yönümü ilə səciyyələnirdi. Bu gün Azərbaycan nüfuzlu vətəndaş cəmiyyətinin əsaslarının qurulduğu, müxtəlif siyasi partiyaların sərbəst fəaliyyət göstərdiyi, yüzlərlə senzurasız qəzet və jurnalın nəşr olunduğu, eləcə də çox sayda özəl telekanalların yayımlandığı və internet şəbəkəsi istifadəçilərinin sayının sürətlə artdığı bir ölkədir.

Ulu öndər Heydər Əliyevin memarı olduğu Azərbaycan bu gün böyük tikinti meydançasını xatırladır. Yüzlərlə sənaye və infrastruktur obyektləri, məktəblər, xəstəxanalar, idman qurğuları, yaşayış evləri, inzibati binalar və digər tikililər ucaldılır, yollar salınır. Ulu Öndərin ölkəmizin sürəkli tərəqqisini təmin edən irimiqyaslı proqramları bu gün də xalqımızın sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşmasına xidmət göstərir.

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətləri olmuş, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermişdir. Tarixə Azərbaycan xalqının Ümummilli Lideri kimi daxil olmuş bu əvəzolunmaz insan liderlərə məxsus ən ali keyfiyyətlərə malik idi. Tanrı ona hər bir üstünlüyü bəxş etmişdi: yaraşıqlı boy-buxun, təbəssüm və sərtliyi sintez edən sima, gələcəyi dəqiq müəyyənləşdirən, tarixin nizamını təmin edən təfəkkür, parlaq natiqlik məharəti, qüdrətli siyasi iradə, güclü dövlətçilik duyğusu, çevik idarəetmə məharəti, insanların qəlbinə yol tapmaq, xalqın qüdrətinə arxalanmaq bacarığı! Heydər Əliyev qalibiyyət əzmilə yaşayan və dövləti cəsarətlə idarə edən möhtəşəm bir şəxsiyyət idi. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev atasından qalan nadir şəxsiyyətlərə məxsus bu keyfiyyətləri şərəflə daşıyır və böyük əzmlə dövlət idarəçiliyində tətbiq edir, tarixin yeni tələblərinə uyğun olaraq təkmilləşdirib inkişaf etdirir. Azərbaycanın dünyadakı nüfuzlu, vüsətli siyasi və iqtisadi yüksəlişi sübut edir ki, İlham Əliyev qalibiyyət əzmini dövlət idarəçiliyinin sarsılmaz baş xətti kimi inadkar bir inamla qoruyub saxlayır. Xalqın etimadına söykənən siyasi fəaliyyəti ilə ərazi bütövlüyümüzü bərpa etdi və eyni zamanda ölkəni ən qabaqcıl dövlətlər sırasına yüksəltməkdə davam edir. Məhz ümummilli lider Heydər Əliyevin xidmətləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, qanunun aliliyinin təmin edilməsi, dilindən, dinindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının qorunması üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılıb.

**İdeoloji İş və
Mənəvi-Psixoloji
Təminat İdarəsi**

# Gender bərabərliyinə həsr olunmuş tədbir keçirildi

*Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Aililəri ilə İş üzrə şöbəsinin nümayəndələri Hərbi Nəşriyyat, "Azərbaycan Ordusu" qəzeti redaksiyası, Sənədli və Tədris Filmləri Mərkəzinin hərbi qulluqçuları və mülki əməkdaşları ilə görüş keçirdilər.*



Şöbə rəisi Zümrüd Səmədova çıxışının əvvəlində 44 günlük Vətən müharibəsində qələbənin qazanılmasında Azərbaycan qadınının rolunu qeyd edərək bildirdi ki, o ağır günlərdə ana və bacılarımız gecə-gündüz həm arxa, həm də ön cəbhədə çalışdılar. "Bu sırada dayanan cəsarətli tibb işçilərimizin və ön cəbhədə döyüşən hərbçilərimizə hazır yeməklərin təminatında köməyini əsirgəməyən xanımlarımızın fəaliyyətini xüsusi olaraq qeyd etmək istəyirəm. Torpaq uğrunda, Azərbaycanımızın ərazi bütövlüyü naminə döyüş meydanında qəhrəmanlıqlar göstərən, ölümün gözünə qorxmadan baxan igidlərimizin hər birini Azərbaycan anası tərbiyə edib, vətənpərvər ruhda böyüdüb. İkinci Qarabağ müharibəsi dövründə arxa cəbhədə ləyaqətlə öz oğullarına, həyat yoldaşlarına mənəvi və maddi dayaq olan, döyüşlərdə iştirak edən hünərli Azərbaycan oğullarına ruh verən, ön cəbhədə yaralı əsgər və zabitlərimizə tibbi yardım göstərən də Azərbaycan qadını olub. Çox gözəl bilirik ki, əsrlər boyu Koroğlunun Nigarı, Qaçaq Nəbiyə ruh verən Həcər kimi qadınlarımız həm də döyüş meydanında kişilərin yaxın silahdaşları, arxa-dayağı olublar. Vətən müharibəsi zamanı bizim şöbə də az iş görmədi. Şəhid ana və bacılarının, xanımlarımızın yanında olduq, dəfn mərasimlərinin təşkilində iştirak etdik, daim onların problemləri ilə maraqlandıq, mənəvi dəstəyimizi əsirgəmədik".

Gender bərabərliyindən danışan şöbə rəisi bu gün nəinki ailə, məktəb və iş yerləri, həmçinin yeni informasiya texnologiyalarının, musiqi, filmlər də daxil olmaqla kütləvi informasiya vasitələrinin də sosiallaşmaya təsir göstərdiyini dedi. "Gender bərabərliyi olan cəmiyyət qadın və kişinin bərabər üzv olduğu cəmiyyətdir. Konstitusiyanın qəbulundan sonra respublikamızda gender balansının qorunması istiqamətində də mühüm addımlar atıldı. Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 14 yanvar tarixli Fərmanı ilə gender siyasətinin həyata keçirilməsi məqsədilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Komitənin yaradılmasında əsas məqsəd qadınların hüquqlarının qorunması, ölkəmizin sosial və siyasi həyatında onların iştirakının artırılmasından ibarət olub. Ulu Öndər Azərbaycan qadınının müsbət keyfiyyətlərini daima xüsusi vurğulayaraq, onun cəmiyyətdə layiqli yer tutmasına çalışmışdır."



Z.Səmədova Azərbaycanda cəmiyyətin bütün həssas zümrələri kimi qadınların da hüquqlarının etibarlı müdafiəçisinə çevrilən, onların cəmiyyətdə layiqli yerinin təmin olunmasına çalışan, YUNESKO və İSESKO-nun xoş məramlı səfiri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu gün gender bərabərliyi uğrunda hərəkatın ön cərgəsində addımladığını qeyd etdi. "Son illərdə Azərbaycanın birinci xanımının təşəbbüsü və dəstəyi ilə Bakıda keçirilən beynəlxalq miqyaslı tədbirlərdə gender bərabərliyinin təmini, qadın hüquqlarının qorunması, qadınlar arasında savadsızlığın aradan qaldırılması kimi məsələlər prioritet müzakirə mövzusu olub. Xüsusi vurğulamaq lazımdır ki, müstəqil, demokratik respublikamızda qadın hüquqları bu gün də etibarlı şəkildə qorunur, yüksək səviyyədə müdafiə edilir. Azərbaycanda qadın hərəkatının geniş vüsət almasında, xanımlarımızın nəcib və xeyirxah məqsədlər naminə sistemli və ardıcıl fəaliyyətinin genişlənməsində Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətləri xüsusi vurğulanmalıdır."

Şöbə rəisi çıxışının sonunda onu da qeyd etdi ki, Azərbaycan Ordusunda fəaliyyət göstərən Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə İş üzrə şöbənin bu günə kimi fəaliyyətində qarşısına qoyduğu məqsəd budur: "Orduda çalışan qadın heyətinin hüquqlarının müdafiəsində durmaq, problemlərinin həlli istiqamətində səmərəli işlər aparmaq, hərbçi ailələrinə mənəvi dəstək olmaq, şəhid ailələrinin problemləri ilə yaxından maraqlanıb, onlara kömək etmək, şəhid və qazi ailələrində olan xəstə uşaqlara tibbi yardım göstərməklə yanaşı, onların gələcəkdə sosial həyata inteqrasiyasında fəal iştirak etməkdir."

Şöbənin əməkdaşı dövlət qulluqçusu Sairə Rəsulova çıxışında Azərbaycan qadınının milli-mənəvi dəyərlərimizin təbliğində göstərdiyi xidmətlərindən bəhs etdi. "Xalqımızın adət-ənənələrində qadına çox böyük hörmət və qayğı ilə yanaşılır. Ailə dəyərləri cəmiyyətimizin ən mühüm və qiymətli dəyərləri olmuş və olaraq qalır. Xalqımız üçün ana müqəddəs simadır. Bu gün də dünyanın hər yerində qadın hüquqlarının təminatı uğrunda hərəkat genişlənib. Azərbaycan xalqı da tarixən özünəməxsus dəyərlərə, adət-ənənələrə bağlı olan yüksək zəkalı, nəcib və xeyirxah xanımları ilə qürur duyub, ana adını uca tutub, qadına dərin hörmət, ehtiram və məhəbbətlə yanaşıb. Xalqımızın qəlbən tapındığı İslam dinində də qadına, qıza və anaya yüksək ehtiram və hörmət ifadə edilib. Müqəddəs hədislərdə və "Qurani-Kərim"də qadınların hüquqlarına hörmətlə yanaşmaq kişilərin qarşısında mənəvi öhdəlik kimi qoyulub. Məhəmməd Peyğəmbər (s.ə.s.) hədislərin birində buyurur ki, qadınlarla xoş rəftar edənlərdən Allahın xoşu gəlir, çünki onlar sizin ananız, qızınız və xalanızdır."

Keçirilən görüşdə Azərbaycan cəmiyyətində, ümumilikdə Azərbaycan Ordusunda gender bərabərliyinin və milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində geniş, məzmunlu çıxışlar edildi, diskussiyalar, müzakirələr aparıldı, xüsusilə qadın hərbi qulluqçuları və mülki əməkdaşları maraqlandıran suallar ətraflı şəkildə cavablandırıldı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə "Bozdoğan" raketini uğurla sınaqdan keçirib



Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan şəxsi "Twitter" hesabında bildirib.

Prezident Rəcəb Tayyib Ərdoğan yazıb: "Türkiyə "havadan-havaya" raket texnologiyasına sahib nadir ölkələrdən biri olmağı bacardı. Gənc texnoloqlarımız və mühəndislərimizin GÖKTUĞ layihəsi çərçivəsində hazırladıqları hava raketimiz "Bozdoğan" ilk atəşlə hədəfi tam məhv etməyə nail oldu".

### Böyük Britaniya hərbi kontingentini Əfqanıstandan çıxaracaq



Böyük Britaniya hərbi kontingentinin demək olar ki, hamısını Əfqanıstandan çıxaracaq.

Hazırda Birləşmiş Krallığın Əfqanıstanda 750 nəfərlik hərbi kontingenti var. Britaniyalı hərbçilər bu ölkədə ABŞ-ın bazalarından və infrastrukturundan asılı olduğu üçün Amerika qoşunlarının yoxluğu onlar üçün çətinlik yaradacaq.

Böyük britaniyalı hərbçilərin əfqan əsgərlərin təlimi ilə məşğul olduğu Kabil şəhərindəki akademiyaya nəzarət isə Əfqanıstan hökumətinə təhvil veriləcək. Bu ərəfədə Ağ evdən bildiriblər ki, ABŞ Prezidenti Cozef Bayden Amerika qoşunlarını sentyabrın 11-dək Əfqanıstandan çıxarmaq niyyətindədir.

### Gürcüstan döyüş təyyarələrini modernləşdirir



Gürcüstan Müdafiə Qüvvələrinə məxsus "Su-25" döyüş təyyarələrini modernləşdirir.

Bu barədə ölkənin Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilir ki, yenilənmiş ikinci hərbi təyyarə aprelin 13-də uğurlu sınaq uçuşu yerinə yetirib. Bərpa olunmuş ilk "Su -25"in sınaq uçuşu martın 6-da baş tutub.

Müdafiə Nazirliyinin balansında olan döyüş təyyarələrinin modernləşdirilməsinin 2022-ci ilin sonunadək başa çatdırılması nəzərdə tutulub.

Qeyd edək ki, Gürcüstan ölkə ərazisindəki hərbi aerodromları da yenidən qurur. Marneuli rayonu ərazisindəki hərbi aerodrom Türkiyə hökuməti tərəfindən bərpa olunur. Türkiyə hökuməti Gürcüstana hərbi təyinatlı bir sıra yeni texnikalar da hədiyyə edib.

### Koreya müharibəsini əks etdirən Memorial Kompleks



Dünyanın müxtəlif ölkələrində hərb mövzusuna, müharibələrə həsr olunan muzeylər fəaliyyət göstərir. Onlardan biri də Koreya Respublikasının paytaxtı Seuldakı Müharibə Memorial Kompleksidir.

Muzey kompleksində Koreya xalqının hərb tarixinə, Cənubi Koreyanın müdafiə sənayesi kompleksinə aid eksponatlarla yanaşı, 1950-1953-cü illərdə baş vermiş Koreya müharibəsinə aid elementlər də var. Onlar arasında ən çox maraq doğuran eksponatlar isə Koreya Xalq Demokratik Respublikası silahlı qüvvələrinin müharibə vaxtı istifadə etdiyi hərbi və zirehli texnikaların, tankların, raket və artilleriya qurğularının, hərbi təyyarə, gəmi və qayıqların, silah və sursatların, hətta yüksək dövlət rəsmilərinin xidməti avtomobillərin orijinalı və oxşarlarıdır. Bundan başqa, muzeydə müharibəni əks etdirən fotoşəkillər, döyüş səhnələrinin, səngərlərin, kazarmaların, hər 2 tərəfdən döyüşmüş hərbçilərin maketləri, həlak olan və itkin düşən əsgərlərin şəxsi əşyaları, geyimləri, sənədlər də nümayiş olunur.

Kompleks Seul sakinlərinin və turistlərin sevimli məkanlarından biri, dünyada da tanınan hərb muzeyi hesab olunur. Bu muzey ziyarətçilərə Koreya müharibəsinin gedişatını göz önündə canlandırmağa geniş imkan yaradır.

**AZƏRTAC-ın materialları əsasında**

*Asudə vaxt*

# “Əsgərin hazırlığı yüksək olanda...”

***Asudə vaxtın təşkili vacib amillərdəndir. Buna görə də komandanlıq bu sahəyə böyük diqqət yetirir. Bütün hərbi hissə və birləşmələrdə asudə vaxtın təşkili üçün hərtərəfli şərait yaradılıb, bu vacib sahəyə kifayət qədər vasitə və avadanlıqlar cəlb olunub. Təcrübəli zabitlər yaradılan şərait və imkanlardan bacarıqla bəhrələnərək şəxsi heyətin asudə vaxtını səmərəli təşkil edir, üzərlərinə düşən tapşırıqları bacarıqla yerinə yetirirlər.***



Əsgərlər asudə vaxtlarında mütaliə edir, müxtəlif idman yarışlarına qatılır, televiziyada vətənpərvərlik mövzusunda çəkilmiş film və verilişlərə baxırlar. Bütün bunlar isə onların daxili aləmini zənginləşdirir, mənəvi gücünü artırır, mənəvi-psixoloji hazırlığını yüksəldir, müsbət əxlaqi keyfiyyətlərin formalaşmasına zəmin yaradır. Gündən-günə əsgərlərin vətənpərvərlik hissləri güclənir, ölkəsini, torpağını daha da çox sevir, ona ürəkdən bağlanır. Özünü həm mənəvi, həm də fiziki cəhətdən yurdunun bütövlüyü uğrunda döyüşlərə hazır hiss edir.

Heç kimə sirr deyil ki, müharibədə qələbə, təkcə silahla, tankla, topla qazanılmır. Sözsüz ki, bunlarsız da düşməni üstələmək mümkün deyil. Amma döyüş ruhunun, qələbə əzminin yüksək olmasının da savaş zamanı böyük rolu var. Bu keyfiyyətlər isə asudə vaxt zamanı əsgərlərin oxuduğu kitab və qəzetlərdən, zabitlərin etdiyi maraqlı söhbətlərdən, baxdıqları maraqlı film və verilişlərdən yaranıb formalaşır. Müxtəlif mövzuda oxuduğu əsərlər əsgərlərin mənəvi-psixoloji hazırlığına da müsbət təsir edir. Böyük sərkərdələrdən biri döyüşçülərin mənəvi-psixoloji hazırlığına yüksək qiymət verərək deyib ki, qələbə döyüş meydanlarından əvvəl ürəklərdə qazanılır. Bu, çox uzaqgörənliklə ifadə edilmiş fikirdir. Məğlub hisslərlə meydana çıxan idmançıdan qələbə gözləməyə dəyərmi? Təbii ki, yox!

Başqa hərbi hissə və birləşmələrdə olduğu kimi, ezamiyyətdə olduğumuz hərbi hissədə də əsgərlərin asudə vaxtının təşkilinə böyük önəm verilir. Təcrübəli zabitlər asudə vaxtın verdiyi imkandan istifadə edərək əsgərlərlə vətənpərvərlik, qəhrəmanlıq mövzularında söhbətlər aparır, onların mənəvi dünyalarını daha da zənginləşdirməyə və mənəvi-psixoloji hazırlığını, döyüş ruhunu, qələbə əzmini artırmağa çalışırlar.

Zabit Səbuhi Qasımovla birlikdə əsgərlərin asudə vaxtlarını necə keçirmələrini izləmək üçün bölmələrdən birinə üz tutduq. Buradakı səliqə-sahman, təmizlik, əsgərlərin nizam-intizamı diqqətimizi cəlb etdi.

Şəxsi heyət asudə vaxtını təbliğat və təşviqat vasitələri ilə zəngin olan ideoloji otaqda keçirirdi. Lövhənin qarşısında dayanan zabit onlara Azərbaycan Ordusunun Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq nümunələrindən danışırdı. Əsgərlər də zabitin maraqlı söhbətinə qulaq asırdılar.

Şəxsi heyətlə söhbət aparan kapitan İlkin Rüstəmovla görüşüb tanış olduq. Zabit dedi ki, əsgərlərimiz asudə vaxtlarını səmərəli keçirməyə çalışırlar. Onlar həm tarixi, həm də günümüzlə səsləşən məlumatları, faktları öyrənməyə böyük maraq göstərirlər. Gördüyünüz kimi, ideoloji otaqda kifayət qədər ədəbiyyatımız və gündəlik qəzetlərimiz var. Əsgərlərimiz mütaliəyə böyük maraq göstərirlər. Onlar yalnız kitab, qəzet oxumaqla kifayətlənmir, həmçinin müxtəlif idman yarışları keçirirlər. Buna görə də gündən-günə onların bacarığı artır. Bacarıqlı və bilikli əsgərlərimizlə fəxr edirik. İnanırıq ki, onlar bundan sonra da xidmətində qazandıqları uğurlarla bizi sevindirəcəklər.

Asudə vaxtlarını səmərəli keçirən əsgərlərlə söhbət edərkən öyrəndim ki, onlar Vətən müharibəsinin iştirakçısı olublar. Həm mənəvi-psixoloji hazırlıqları, həm də döyüş hazırlıqları yüksək olduğuna görə, əməliyyatlarda erməni qəsbkarlarına qarşı cəsarət və hünərlə vuruşublar. Gizir Məhərrəm Qasımov, əsgərlərdən Eltac Baxşəliyev, Hənifə Zərbəliyev, Camal Oruclu, Mahir Məmmədli, Tural Həsənli, Renat Ramazanov, Məhəmməd Məmmədzadə və başqaları iştirakçısı olduqları döyüşlərdən həvəslə danışdılar.

- Əks-həmlə əməliyyatları zamanı uzun illərdən bəri torpaqlarımızı işğalda saxlayan erməni qəsbkarlarına sarsıdıcı zərbələr vurduq, - deyə əsgər Hənifə Zərbəliyev bizimlə söhbətə başladı. - Bölməmiz Talış və Suqovuşan istiqamətində mövqelənmişdi. Döyüşə-döyüşə yağıları geri sıxışdırırdıq. Düşmənə qarşı qisas və intiqam hissi ilə vuruşurduq. Torpaqlarımızı sülh yolu ilə geri qaytarmaq niyyətində olmayan işğalçıları müharibə yolu ilə ərazilərimizdən çıxartdıq. Əsgər yoldaşlarımızla çiyin-çiyinə verib düşməni məhv etdik. Talış kəndi uğrunda gedən döyüşdə mərmi yaxınlığımıza düşdü, qəlpə yarası aldım. Müalicəmi başa vurandan sonra xidmət yerimə qayıtdım.

- Asudə vaxtımızı çox maraqlı keçiririk, - deyə əsgər Renat Ramazanov söhbətimizə qoşuldu. - Bunun üçün hərbi hissəmizdə hər cür şərait yaradılıb. Tez-tez bölmələr arasında futbol, voleybol yarışları təşkil olunur. Şahmat, dama və başqa yarışlarda da əsgər dostlarım həvəslə iştirak edirlər. Bütün bunlarla yanaşı, biz mütaliəyə də böyük önəm veririk. Asudə vaxtımızda ideoloji otaqda qəzet və kitabları oxuyur, biliyimizi, dünya görüşümüzü artırırıq. Getdikcə mənəvi dünyamız daha da zənginləşir, mənəvi-psixoloji hazırlığımız yüksəlir.

Şəxsi heyət asudə vaxtdan səmərəli istifadə edir. Buna görə də əsgərlərin hazırlığı hərtərəfli artır.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# “Şahin-1A” ballistik raketi



Pakistan istehsalı olan "Xatf-4" adı altında tanınan "Şahin-1A" taktiki-operativ ballistik raketi özündə orta məsafəli qatıyanacaqlı ballistik raketi təsvir edir. "Şahin-1" nəslindən olan raketlərin hazırlanmasına 1995-ci ildən başlanılıb. Raketin ilk sınağı 1999-cu ildə həyata keçirilib. Pakistan ordusunun silahlanmasında bir neçə bu tipli raket kompleksi mobil qurğular üzərində yerləşdirilib. 1999-cu ilin aprelində Ormain hərbi dəniz bazasından 750 kilometrlik məsafəyə qədər "Şahin-1" raketinin sınaq buraxılışı yerinə yetirilib. Bu raketlər 1000 kiloqrama qədər həm adi, həm də nüvə döyüş başlıqlarını daşıya bilər.

2015-ci ilin dekabrında döyüş başlıqlarını daşıyan ikinci "üst-üst" "Şahin-1A" raketinin sınağı keçirilib. Bu raket 900 kilometrlik məsafəyə qədər 1000 kiloqram döyüş hissəsini çatdıra bilər. Texniki xüsusiyyətlərinə gəldikdə isə "Şahin-1A" ballistik raketinin uzunluğu 12,0 metr, diametri 1,0 metrdir. "Şahin-1A" raketinin çəkisi 10000 kiloqramdır. Mühərriki RDTT, buraxıcı qurğusu mobil, təkərlidir. Döyüş hissəsi adi və nüvə tiplidir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Şəhid Murad Məmmədovun xatirəsinə həsr edilmiş onlayn şahmat turnirinin açılış mərasimi keçirilib



Vətən müharibəsi şəhidi, idmançı, "Vətən uğrunda" medalı ilə təltif olunmuş Murad Məmmədovun xatirəsinə həsr edilmiş onlayn şahmat turnirinin açılış mərasimi keçirilib.

Turnir Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin (BŞGİBİ), Nərimanov rayon Gənclər və İdman İdarəsinin və "Ağ Top" Şahmat Klubunun birgə təşkilatçılığı ilə reallaşıb.

Onlayn tədbirdə Murad Məmmədov haqqında hazırlanmış videoçarx nümayiş olunub.

Açılış mərasimində çıxış edən "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Nərimanov Rayon İcra Hakimiyyəti başçısının müavini İradə Mahmudova, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Nərimanov Rayon Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov, "Ağ Top" Şahmat Klubunun direktoru Cavanşir Bağırov, Azərbaycan Kooperasiya Universitetinin Mətbuat və İctimai İşlər Xidmətinin rəhbəri Tamerlan Əkbərov Vətən müharibəsində qazanılan qələbəmizdən söz açıblar. Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin elan etdiyi "Qarabağ Azərbaycandır və nida" şüarı xalqımızın müqəddəs Vətən torpağı uğrunda savaşının ideya qayəsi, qələbəyə səsləyən rəhbər çağırışı oldu. 44 gün davam edən müharibədə cəmiyyətimizin nümayiş etdirdiyi möhtəşəm səfərbərlik xalqımızın dövlət başçısının ətrafında sıx birləşməsinin bariz ifadəsi olmaqla yanaşı, eyni zamanda, yeni və qüdrətli Azərbaycanın bütün dünyada özünütəsdiqi kimi qəbul edildi.

Çıxışlardan sonra yarışlara start verilib.

## Futzal üzrə Azərbaycan millisi seçmə mərhələyə qələbə ilə yekun vurub



Futzal üzrə Azərbaycan milli komandası Avropa çempionatının seçmə mərhələsi çərçivəsində qrupda sonuncu oyununu keçirib.

Bakı İdman Sarayında keçirilən qarşılaşmada Yunanıstan yığması ilə üz-üzə gələn millimiz 4:0 hesablı qələbə qazanıb.

Panagiotis Gousisin avtoqol müəllifi olduğu oyunda millimizin digər qollarını Fineo, İsa Atayev və Ramiz Çovdarov vurublar.

Qeyd edək ki, aktivində 16 xalı olan millimiz 3-cü qrupun lideridir və gələn il yanvarın 19-dan fevralın 6-dək Niderlandda keçiriləcək Avropa çempionatının final mərhələsinə vəsiqəni təmin edib. İndiyədək millimiz 5 dəfə (2010-cu, 2012-ci, 2014-cü, 2016-cı və 2018-ci illərdə) qitə birinciliyinin həlledici mərhələsində iştirak edib.

## Azərbaycanlı boksçu dünya birinciliyində erməni idmançını məğlub edib



Polşanın Keltse şəhərində gənc boksçular arasında dünya birinciliyi davam edir.

Mundialın ikinci günündə Azərbaycan millisinin üzvü Əli Zamanov (52 kq) ilk döyüşünü keçirib. Bu döyüşdə Avropa çempionumuz ermənistanlı Ruben Qarboyanla (Ermənistan) üz-üzə gəlib. Ə.Zamanov rəqibini 3:0 (28:28, 29:27, 29:27, 29:27, 28:28) hesabı ilə məğlub edib. O, səkkizdəbir finalda ilk mərhələdən azad olan tailandlı Tanakon Aonyaemlə qarşılaşacaq. Görüş aprelin 15-də baş tutacaq.

Qeyd edək ki, yığmamız 52 ölkədən 414 (274 oğlan, 140 qız) boksçunun qatıldığı dünya birinciliyində 9 idmançı ilə təmsil olunur. Yarış aprelin 23-də başa çatacaq.

**AZƏRTAC-ın**
**materialları əsasında**

**Baş redaktorun vəzifəsini icra edən**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 220
Nüsxə 4050